***Azərbaycan uğurlu xarici siyasət sayəsində regionda və beynəlxalq arenada nüfuzlu aktorlardan birinə çevrilib. Qarabağ müharibəsində qazandığı tarixi Zəfər, ölkənin iqtisadi gücünün artması və beynəlxalq təşkilatlarda aktiv iştirakı ölkəmizin mövqeyini daha da gücləndirib. Bu gün Bakı həm regional təhlükəsizlik sahəsində, həm də qlobal diplomatiyada etibarlı və önəmli tərəfdaş kimi tanınır. Yaxın Şərq ölkələri ilə əlaqələrin inkişafı uğurlu siyasətin mühüm istiqamətlərindən biri olub və bu baxımdan Suriya ilə münasibətlər xüsusi önəm kəsb edir.***



# Azərbaycan-Suriya

# münasibətlərində müasir dövr: diplomatiyadan enerji əməkdaşlığına

Azərbaycan və Suriya arasında diplomatik münasibətlər 1992-ci ildə qurulub. Tarixi və mədəni bağlara malik olan iki ölkə arasında əlaqələrin inkişafında Ümummilli Lider Heydər Əliyevin əvəzsiz rolu olub. Məhz onun təşəbbüsü ilə 1997-ci ildə Dəməşqdə Azərbaycan Respublikasının səfirliyi fəaliyyətə başlayıb. Hər iki xalq arasında iqtisadi, mədəni və humanitar sahələrdə əməkdaşlıq dərinləşib, ortaq mənəvi dəyərlər və qarşılıqlı hörmətə əsaslanan münasibətlər formalaşıb. Lakin diplomatik əlaqələr 2012-ci ildə, Suriyada daxili siyasi və hərbi vəziyyətin kəskinləşməsinə görə dayandırıldı. Azərbaycanın Suriyadakı diplomatik nümayəndəliyinin fəaliyyətinin qeyri-müəyyən müddətə dayandırılması da məhz bununla əlaqədar olmuşdur. Bəşər Əsəd rejimi dövründə Azərbaycan-Suriya münasibətləri arzuolunan səviyyədə inkişaf etmədi. Bunun əsas səbəblərindən biri Suriyada yaşayan erməni icmasının anti-Azərbaycan və anti-türk mövqeyi, ASALA və PKK kimi terror təşkilatlarının Suriyada fəaliyyət göstərməsi, eləcə də bu ölkənin Qarabağ məsələsində tutduğu qeyri-obyektiv mövqe olub.

2024-cü ilin dekabr ayında Suriyada baş verən hakimiyyət dəyişikliyi iki ölkə arasında münasibətlərin inkişafı baxımından yeni imkanlar yaratdı. Əsəd rejiminin devrilməsindən iki gün sonra Azərbaycan Xarici İşlər Nazirliyi bəyanat yayaraq iki ölkə arasında əlaqələrin bərpasına ümid etdiyini bildirdi. Bu bəyanatla diplomatik münasibətlərin yenidən qurulması istiqamətində ilk addım atıldı. 2024-cü il dekabrın 29-da Azərbaycan xarici işlər nazirinin müavini Yalçın Rəfiyev Dəməşqə səfər etdi və bir gün sonra - dekabrın 30-da Azərbaycan Prezidentinin tapşırığı ilə Suriyaya ilk humanitar yardım karvanı göndərildi. On maşından ibarət karvanda təxminən 200 ton ərzaq və zəruri ləvazimat olub. Bu humanitar missiya cari ilin fevral və mart aylarında davam etdirilib.

(davamı 7-ci səhifədə)

## GÜNÜN SİYASİ NƏBZİ











# Azərbaycan-Suriya münasibətlərində müasir dövr: diplomatiyadan enerji əməkdaşlığına

(əvvəli 1-ci səhifədə)

Yeni mərhələdə Azərbaycan-Suriya münasibətlərində ən mühüm hadisələrdən biri 2025-ci ilin fevral ayında Dəməşqdəki səfirliyimizin fəaliyyətini bərpa etməsi oldu. Bu, ikitərəfli əlaqələrin daha sistemli və davamlı şəkildə inkişafına imkan yaratdı. Prezident İlham Əliyevin Suriyanın keçid dövrü Prezidenti Əhməd Əl Şaraaya ünvanladığı təbrik məktubu və Antalya Diplomatiya Forumu çərçivəsində baş tutan ilk görüş münasibətlərin siyasi müstəvidə də bərpa olunduğunu göstərdi.

Ən mühüm strateji irəliləyişlərdən biri isə enerji sektorunda baş verdi. İyulun 12-də Suriyanın keçid dövrü Prezidentinin ölkəmizə işgüzar səfəri çərçivəsində Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR) ilə Suriya Hökuməti arasında Anlaşma Memorandumu imzalandı. Bu sənəd Azərbaycan qazının Türkiyə üzərindən Suriyaya nəqlini nəzərdə tutur. Suriya üçün həyati əhəmiyyət daşıyan bu qaz layihəsi, eyni zamanda Azərbaycanın enerji ixracı tarixində də mühüm mərhələdir. Suriyanı İordaniya ilə birləşdirən qaz kəmərinin bərpası ilə Azərbaycan qazının Suriyadan keçməklə Misirə qədər çatdırılması imkanı ortaya çıxır. Bu isə Azərbaycanın enerji coğrafiyasının yeni istiqamətlər üzrə genişlənməsi deməkdir.

Avqustun 2-də Türkiyənin Kilis şəhərində keçirilən mərasimlə bu layihəyə rəsmi olaraq start verildi. Tədbirdə Azərbaycanın iqtisadiyyat naziri, SOCAR-ın Müşahidə Şurasının sədri Mikayıl Cabbarov bildirdi ki, bu layihə Suriyanın enerji təhlükəsizliyinin təmin edilməsinə mühüm töhfə verəcək. Azərbaycan qazının ixrac olunduğu ölkələrin sayının 14-ə çatdığını söyləyən nazir qeyd ki, SOCAR-ın planları daha böyükdür və hazırda xaricdə qaz hasilatı layihələrində paylar əldə edərək şirkətə məxsus qazı yeni istehlakçı ölkələrə çatdırmağı planlaşdırır. Türkiyə və Azərbaycanın Suriyanın bərpasında birgə fəaliyyət göstərməsi, həm enerji sahəsində, həm də humanitar və infrastruktur layihələrində fəal iştirakı regionda sabitliyin möhkəmlənməsinə xidmət edir.

SOCAR ilə Türkiyə Energetika Nazirliyi arasında imzalanan SVOP (mübadilə) razılaşması çərçivəsində, Azərbaycanın təbii qazı Türkiyə-Suriya sərhədində Suriyaya təhvil verilir. Türkiyənin energetika və təbii sərvətlər naziri Alparslan Bayraktarın sözlərinə görə, "Yavuzlu Ölçmə" Stansiyasından gündəlik 6 milyon kubmetr qaz nəql olunur və bu göstərici illik 2 milyard kubmetrə qədər arta bilər. Bu qaz vasitəsilə 1200 meqavatlıq gücə malik elektrik stansiyalarının işə salınması planlaşdırılır. Beləliklə, Suriyada həyatın normallaşması, insanların geri qayıdışı və sosial-iqtisadi dirçəliş daha da sürətlənəcək.

Suriyanın energetika naziri Məhəmməd Əl Bəşir qeyd edib ki, Azərbaycan və Türkiyə ilə əməkdaşlıq böyük xoşbəxtlikdir. Bu layihənin ən qısa vaxtda həyata keçirildiyini xüsusi olaraq vurğulayan nazir bildirib ki, yalnız Suriyaya dost və qardaş ölkələr onun xalqının rifahını, firavanlığını düşünə bilər.

Azərbaycan nümayəndə heyətinin səfəri çərçivəsində Türkiyə və Suriya nümayəndə heyətləri ilə keçirilən görüşlərdə enerji əməkdaşlığının gələcək perspektivləri də müzakirə olunub. Bu görüşlər, ölkəmizin yalnız regionda deyil, həm də qlobal miqyasda etibarlı enerji tərəfdaşı kimi nüfuzunun artmasına səbəb olur.

Nəticə etibarilə, Azərbaycan-Suriya münasibətləri uzun illər davam edən fasilədən sonra keyfiyyətcə yeni mərhələyə qədəm qoyub. Diplomatik əlaqələrin bərpası, humanitar təşəbbüslər, enerji əməkdaşlığı və siyasi dialoq bu münasibətlərin davamlı olacağını göstərir. Azərbaycanın Yaxın Şərq regionundakı fəallığı, onun strateji düşüncəyə əsaslanan, sülhü və əməkdaşlığı hədəfləyən xarici siyasət xəttinin tərkib hissəsidir. Rəsmi Bakı bu gün yalnız Avropa və Mərkəzi Asiyada deyil, həm də Yaxın Şərqdə sözünü deyən, güvənilən və nüfuzlu tərəfdaş kimi tanınır.

**Musa BAĞIRLI,**
**"Respublika".**